*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 209-216*
https://doi.org/10.62837/2024.3.209

**NURANƏ ABAS AĞA QIZI HÜSEYNOVA**
***Evrika liseyi***
***Əhmədd Rəcəbli 1/6***
***nuranateacher@gmail.com***

# GƏNC QRAMMATİKLƏRİN ETİMOLOGİYA İLƏ BAĞLI NƏZƏRİ FİKİRLƏRİ

**Xülasə**

Məqalədə gənc qrammatiklərin etimologiya sahəsindəki araşdırmalarından bəhs olunur. Etimoloji araşdırmaların nəzəri və metodoloji əsasları haqqında ümumi dilçilikdə Ferdinand de Sössür, Antuan Meye, Emil Benvenist, Yeje Kuriloviç, V.Pizani, Q.Şuxardt, J.Vandriyes, G.Bonfante, N.Pott, N.Marr, O.N.Trubaçev, A.Potebnya, Ənvər Makayev, S.Starostin, H.Birinbaum, A.Dıbo, V.N.Toporov subyektiv müddəalar irəli sürmüşlər. Vaxtilə, XIX əsrdə gənc qrammatiklər adlanan dilçilik məktəbinin nümayəndələri Karl Bruqman, Bartold Delbryuk, Avqust Leskin, Herman Ostxof, V.Şterytberq və Herman Paul etimologiya elminin inkişafında müstəsna rol oynamış oldular. Onlar XIX əsrdə elmi etimologiyanı daha da inkişaf etdirərək onu dilçiliyin müstəqil bir sahəsinə çevirdilər. Onlar dil tarixinin yeni linqvistik paradiqmalardan öyrənilməsinin əsasını qoydular. Gənc qrammatiklərin bu sahədəki uğurlu araşdırmaları XX əsrdə elmi etimologiyanın fundamental konsepsiyalarla zənginləşməsinə səbəb oldu. Onların uğurlu dilçilik görüşləri etimologiya elminin nəzəri-metodoloji və konseptual baxımdan sürətli inkişafına gətirib çıxardı.

***Açar sözlər: dilçilik, dilçilik məktəbi, gənc qrammatiklər, etimologiya, XIX əsr, konsepsiya***

**НУРАНА АБАС АГА КЫЗЫ ГУСЕЙНОВА**

# ТЕОРЕТИЧЕСКИЕ ВЗГЛЯДЫ МОЛОДЫХ ГРАММАТИСТОВ НА ЭТИМОЛОГИЮ

**РЕЗЮМЕ**

В статье говорится об исследованиях молодых грамматиков в области этимологии. Фердинанд де Соссюр, Антуан Майе, Эмиль Бенвенист, Йеже Курилович, В.Пизани, Г.Шухардт, Ж.Вандриес, Ж.Бонфанте, Н. Потт, Н.Марр, О. Н. Трубачев, А.Потебня, Анвар Макаев, С.Старостин, Х.Биринбаум, А.Дыбо, В.Н.Топоров выдвинули субъективные утверждения в области этимология. В свое время, в XIX веке, исключительную роль в развитии этимология сыграли представители так называемой школы молодых грамматистов в лингвистике Карл Бругман, Бартольд Дельбрюк, Август Лескин, Герман Остгоф, В.Штеритберг и Герман Пауль. В XIX веке они развили научную этимологию и превратили ее в самостоятельную отрасль

языкознания. Они заложили основу для изучения истории языка на основе новых лингвистических парадигм. Успешные исследования молодых грамматистов в этой области привели в XX веке к обогащению научной этимологии фундаментальными понятиями. Их успешные лингвистические гипотезы привели к быстрому развитию науки этимологии с теоретической, методологической и концептуальной точки зрения.
**Ключевые слова**: языкознание, лингвистическая школа, молодые грамматики, этимология, XIX век, концепция.

**NURANA ABAS AGHA GIZI HUSEYNOVA**

## THEORETICAL VIEWS OF YOUNG GRAMMARIANS ON ETYMOLOGY
## SUMMARY

The article talks about the research of young grammarians in the field of etymology. Ferdinand de Saussure, Antoine Maye, Emil Benveniste, Yeje Kurilovich, V. Pizani, G. Schuhardt, J. Vandriyes, G. Bonfante, N. Pott, N. Marr, O.N.Trubachev, A.Potebnya, Anvar Makayev, S. Starostin, H. Birinbaum, A. Dybo, V.N.Toporov put forward subjective statements. At one time, in the 19th century, representatives of the so-called young grammarians school of linguistics, Karl Brugman, Barthold Delbrück, August Leskin, Herman Osthof, V. Shterytberg and Herman Paul played an exceptional role in the development of the science of etymology. They further developed scientific etymology in the 19th century, turning it into an independent branch of linguistics. They laid the foundation for the study of language history from new linguistic paradigms. The successful research of young grammarians in this field led to the enrichment of scientific etymology with fundamental concepts in the 20th century. Their successful linguistic meetings led to the rapid development of the science of etymology from the theoretical, methodological and conceptual point of view.
**Keywords: linguistics, school of linguistics, young grammarians, etymology, XIX century, concept**

XIX əsr müqayisəli dilçilik əsridir. Çünki məhz həmin dönəmdə dünya dilçiliyi tarixində özünəməxsus ideyaları olan dilçilik məktəblərindən biri də “Gənc qrammatiklər” məktəbi idi. Bu dilçilik məktəbi XIX əsrdə Almaniyada təşəkkül tapmışdı. Gənc qrammatiklər məktəbinin əsas nümayəndələri Karl Bruqman, Bartold Delbryuk, Avqust Leskin, Herman Ostxof, V.Şterytberq və Herman Paul idi. Bu dilçilik məktəbinin əsas nümayəndələri və yaradıcıları Almaniyadan olsa da, sonralar onların ideyaları digər ölkələrdə də yayılmağa başladı, xüsusilə Fransa və Rusiyada onların ideya tərəfdarları çoxalmış oldu.

Onlar XIX əsr dilçiliyinin ən böyük uğurlarından biri olan müqayisəli-tarixi dilçiliyi daha da təkmilləşdirdilər, bu metodu yeni nəzəri konsepsiyalarla zəngin-

ləşdirdilər. Məhz gənc qrammatiklərin dönəmində dilin stadial, yəni mərhələli şəkildə öyrənilməsinə maraq artmış oldu. Gənc qrammatiklər məktəbinin təşəkkül və inkişaf dönəmi, əsasən, XIX əsrin ikinci yarısı ilə bağlıdır.

Etimoloji dilçiliyin inkişafına hind-Avropa dilçiliyi öz töhfələrini verib. O cümlədən Gənc qrammatiklər məktəbinin nümayəndələri özünəməxsus nəzəri - metodoloji konsepsiyaları ilə ümumi dilçiliyi zənginləşdirmiş oldular. Gənc qrammatiklər məktəbinin əsas nəzəri konsepsiyaları və proqramları Herman Ostqof və Karlq Bruqman tərəfindən hazırlanan "Manifest"də əks olunmuşdur. Onlar müqayisəli-tarixi dilçiliyin inkişafında mühüm rol oynamışdılar. Müqayisəli-tarixi dilçiliyin də əsas metodu məlumdur ki, rekonstruksiya idi. Buna görə də müqayisəli-tarixi dilçiliklə məşğul olan gənc qrammatiklər etimologiya haqqındakı nəzəri konsepsiyaları ilə bu sahəni zənginləşdirmiş oldular.

Məlumdur ki, müqayisəli-tarixi metod XIX əsrdən tətbiq olunmağa başlanıldı. Həmin əsrdə F.Bopp, A.Şleyxer, A.Vostokov, Y.Qrimm ayrı-ayrılıqda qohum dillərin müqayisəsi əsasında protodilin və protoformaların bərpa olunma konsepsiyasının nəzəri müddəalarını hazırlamış oldular. Hind-Avropaşünaslıqda yeni bir dönəm başlamış oldu. Müqayisəli-tarixi dilçiliyin təşəkkülü ilə dünya dilçiliyi elmi etimologiyanın əsas prinsiplərinin və konsepsiyalarının tətbiqi mərhələsinə qədəm qoydu. Gənc qrammatiklər bu metodun tətbiq sahəsini genişləndirdilər. Xüsusilə, bu sahədə hind-Avropa dilçiliyində böyük uğurlar əldə edildi. Ümumilikdə, müqayisəli-tarixi dilçilik məktəbinin formalaşması və inkişafı birbaşa hind-Avropa dilçiliyi ilə bağlı idi.

Gənc qrammatiklərin "Manifesti"ndə onların etimologiya haqqındakı nəzəri fikirləri yer almışdı. "*Onlar yazırdılar ki, müqayisəli dilçiliyin əsas məqsədi hind-Avropa dilinin rekonstruksiyası olmalıdır Onlar bildirirdilər ki, hind-Avropa dillərindəki rekonstruksiyalar qədim dillərin materialları əsasında olmamamlıdır*" (6, s.94).

Onlar Avqust Şleyxer və Frans Boppun etimoloji konsepsiyalarını daha da inkişaf etdirərək bu sahədə öz təlimlərini yaratdılar. Onların etimoloji konsepsiyası dilin fonetik və morfoloji paradiqmaları əsasında daxili və xarici rekonstruksiyaların ümumiləşdirilərək reallaşdırılmasını nəzərdə tuturdu. Gənc qrammatiklər dilin morfoloji təkamülü haqqında, yəni kök formadan iltisaqi və yaxud da flektiv formaya doğru inkişaf konsepsiyasını təkzib edirdilər. Onlardan Herman Ostqof etimologiya sahəsində orijinal konsepsiyaları ilə fərqlənirdi. Gənc qrammatiklərin əsas nümayəndələrindən biri olan B.Delbryuk protodil və etimoloji axtarışlar haqqında nəzəri fikirlər irəli sürmüşdür (7, s.218).

Gənc qrammatiklər elmi etimologiyanın inkişafında müstəsna rol oynamış oldular. Əgər elmi etimologiyanın tarixinin XIX əsrdən başlandığını nəzərə alsaq, elmi etimologiyanın təşəkkülü və inkişafına iki əsas səbəb olmuşdur. Bunlardan birincisi, müqayisəli-tarixi metodun yaranması idi, ikincisi isə Gənc qrammatiklər məktəbinin yaranması idi. Çünki məhz Gənc qrammatiklər elmi etimologiyanın nəzəri-metodoloji bazasının əsasını qoydular.

Hind-Avropaşünaslığında daxili rekonstruksiya tərəfdarları gənc qrammatiklərin metodunu tənqid etməyə başladılar. Ə.Makayev gənc qrammatiklərin apardığı rekonstruksiyaları *elektik prosedur* adlandırır (9, s.13). Xüsusi olaraq qeyd edirik ki, Gənc qrammatiklər məktəbinin müxtəlif nümayəndələri tərəfindən aparılan araşdırmalar XIX əsrdə müqayisəli - tarixi dilçiliyin inkişafını sürətləndirmiş oldu.

Gənc qrammatiklər arasında etimoloji araşdırmaların nəzəri məsələləri ilə müntəzəm məşğul olan alimlərdən biri də Karl Bruqman idi. Onun adı ümumi və nəzəri dilçilik tarixinə *Bruqman qanunu* adlanan qanunla daha da şöhrət qazanmışdır. Bruqman qanunu hind-Avropa dillərinin kök sözlərində səs keçidlərinin fonoloji uyğunluqlarını əsaslandıran bir qanundur. Karl Bruqmanın XIX əsrin ikinci yarısında irəli sürdüyü hind-Avropa dillərində işlənən kök saitlərlə bağlı fonoloji uyğunluqları müəyyənləşdirən hipoteza sonradan Bruqman qanunu adı altında ümumi dilçilik tarixində özünə yer tapmış oldu. Hind-Avropa dilçiliyində bəzi dilçilər tərəfindən bu qanun qəbul olunmasa da, larinqal nəzəriyyə kimi, Bruqman qanunu da hind-Avropa dillərinin protodildən sonrakı morfonoloji inkişaf mərhələlərini izləməyə imkan verdi.

Osvald Smereni qeyd edir ki, 1878-ci ildə gənc qrammatiklərin nümayəndləri olan Karl Bruqman və Herman Ostqof tərəfindən təsbit edilən fonoloji qanunauyğunluqlar nəzəriyyəsi indi də öz əhəmiyyətini itirməmişdir (11, s.36). Karl Bruqmanın hind-Avropa dillərinin kök sözlərində nizamlı səs keçidlərini təsbit edən nəzəriyyəsi sonradan etimoloji araşdırmalar üçün, larinqal nəzəriyyə kimi, mühüm istinad mənbələrindən birinə çevrildi. Beləliklə də, K.Bruqman və digər gənc qrammatiklər səs qanunauyğunluqları əsasında praformaların bərpasının nəzəri prinsiplərini hazırlamış oldular.

Onlar səs keçidlərinin, səs alternasiyalarını təsadüfi, yəni spontan hadisə kimi deyil, qanunauyğun hadisə kimi izah edirdilər. Çünki ilkin söz köklərinin bərpasında fonetik qanunauyğunluqların, nizamlı səs keçidlərinin nəzərə alınması ən mühüm amillərdən biri sayılır. Gənc qrammatiklərin dilçilik tarixində ən böyük elmi uğurlarından biri məhz onların səs keçidlərinin, səs əvəzlənmələrinin daxili fonoloji sistemlərini yaratması idi.

Bir nüansı qeyd edək ki, XIX əsrə qədər elmi etimologiya olmamışdır. O dövrə qədər olan etimologiya ilə indiki etimologiya çox fərqlənirdi. XIX əsrə qədər olan etimologiya sözün ilkin formasının bərpasına deyil, "həqiqi, əsl sözün bərpası" prinsipinə əsaslanırdı. Belə ki, bu dövrədək dilçilikdə etimon dedikdə ilkin praforma deyil, xalq tərəfindən unudulan, mövcud olmayan, işlədilməyən söz forması nəzərdə tutulurdu (6, s. 20-21). Bütün bunlar isə elmi etimologiyanın düzgün dərk olunmasına mane olurdu, etimologiyanı əsas məqsədlərindən uzaqlaşdırırdı.

Gənc qrammatiklərin istedadlı nümayəndələrindən biri olan Herman Paul məşhur "Dil tarixinin prinsipləri" adlı əsərində etimologiya haqqında maraqlı nəzəri fikirlər irəli sürmüşdür. O, bu əsərdə *etimoloji qohumluq, etimoloji birlik, etimoloji - səs proporsiyası, etimoloji əlaqə* terminlərindən tez-tez istifadə edir (10, s.96; 230). O, qeyd edir ki, "*hind-Avropa dilçiliyində son əlli ildə etimologiya sahəsində uğurlar*

*qazanılsa da, kifayət qədər sözün mənşəyi naməlum qalmışdır, onların protodildən gəldiyi və yaxud da alınma olması dəqiq müəyyənləşməyib*" (10, s.213).

Herman Paul ümumilikdə nəzəri dilçiliyin bir sıra problemlərinə aydınlıq gətirmişdi. O, dilin ümumi struktur inkişaf qanunauyğunluqlarını müəyyənləşdirmişdi. Herman Paulun fikrincə, "*etimoloji cəhətdən qohum olan sözlərin mənaca fərqlənməsi, semantik cəhətdən ayrılması onların vaxtilə funksiya cəhətdən ayrılması ilə əlaqədar yaranmışdır"* (10, s.237). Herman Paul düzgün olaraq qeyd edir ki, "*qohum sözlər arasında etimoloji əlaqə mühüm rol oynayır*" (10 , s.456). O, alman dilinin materiallarından istifadə edir. H.Paulun fikrincə, alman dilində *fahren – Fahrt– Gefährte – furt* tipli qohum sözlərin hamısında *f* samiti qorunsa da, kök samit dəyişməyə məruz qalmışdır (10, s.456). Beləliklə, Herman Paul kök sözlərdə fonoloji dəyişmələrin iyerarxiyasının izlənilməsi ilə praformaların bərpası problemini xüsusi vurğulamış olurdu. O, kök sözlərin qohum dillərdə morfonoloji inkişafının izlənilməsi ilə ikin formaların bərpası sxemini hazırlamışdır. Onun etimoloji görüşlərində başlıca prinsip fonoloji qanunauyğunluqların tapılması idi. Herman Paul yazır ki, "*fonetika və qrammatika sahələrində biliklərin dərinləşməsi etimologiyanın inkişafına böyük bir təkan verdi*" (10, s.7). H.Paulun etimoloji görüşlərində *xalq etimologiyası* anlayışının ayrıca şərhinə geniş yer verilmişdir. Onun fikrincə, bəzən təsadüfi fonetik uyğunluqlar əsasında etimoloji cəhətdən qohum olmayan sözləri bir qrupda birləşdirirlər. Bu, sadə şəkildə desək, xalq etimologiyası adlanan etimologiya zamanı sözün yenidən mənalandırılması, yenidən dərk olunması məhdudlaşır və həmin proses fonetik cəhətdən dəyişməyə gətirib çıxarmır. Xalq etimologiyası o zaman özünə yer tapır ki, yalançı etimologiya nəticəsində sözün mənşəyi çaş-baş salınır və söz bu və ya digər əsaslandırılmış əlaqələrdən məhrum olur (10, s.262). O, xalq etimologiyası anlayışını yenidən mənalandırma şəklində izah edir (10, s.466). H.Paulun etimoloji görüşlərində sözün fonetik formasının dəyişməsi nəticəsində söz köklərində baş verən fərqli morfoloji inkişaf məsələsi və anlam dəyişməsi problemi mühüm yer tutur. Yəni H.Paul dilin inkişafına sözün inkişafı aspektindən yanaşır. Onun dilin ümumi strukturuna baxışı söz formalarının morfonoloji modifikasiyasına əsaslanır.

Belə bir yekun qənaətə gəlmək olar ki, Herman Paulun "Dil tarixinin prinsipləri" adlı monoqrafiyası etimologiya elminin nəzəri müddəalarının zənginləşməsində mühüm rol oynamış oldu. O qeyd edir ki, etimologiya öyrədir ki, qədim dövrlərdə predmetlər müəyyən əlamətlərinə görə adlandırılmışdır, yəni adlar predmetləri bütünlüklə ehtiva edə bilməmişdir, yalnız onun bir əlamətini adlandıra bilmişdir (10, s.110). Beləliklə də, Herman Paul etimologiyanın dil tarixi üçün mühüm önəmini diqqətə çatdırır. Onun elmi qənaətləri məhz bu konsepsiyanı formalaşdırır ki, etimologiya sözün tarıxinin timsalında ümumilikdə dilin tarixi haqqında olan bir elm sahəsidir.

Məna dəyişmələrini, sözün anlam strukturundakı deformasiyaları etimologiyanın mühüm prinsipi hesab edən Herman Paulun fikrincə, "*sözün mənaları çoxaldıqca, yəni söz semantik həcmini genişləndirdikcə, sonrakı inkişaf mərhələsində ilkin mənaların yalnız bir qismi saxlanmış olur"* (10, s.110). Herman Paulun "Dil tarixinin

prinsipləri" əsəri dilə tarixi aspektdən yanaşmağın elmi-nəzəri metodologiyasını müəyyənləşdirmiş oldu. Onun bu əsəri tarixi dilçiliyin universal cəhətlərini üzə çıxarmış oldu. Gənc qrammatiklər A.Şleyxerin vahid hind-Avropa dilinin protoformasını bərpa etmək cəhdinə təndiqi yanaşsalar da, onların da əsas məqsədi dilin ilkin dövrünü bərpa etmək idi. Ancaq onlar hər bir dilə fərdi yanaşmağın tərəfdarı idilər. Ayrı-ayrı hind-Avropa dillərinin protoformalarını rekonstruksiya etmək konsepsiyasını mühüm nəzəri müddəa kimi qəbul edirdilər.

Gənc qrammatiklərin etimologiya və müqayisəli-tarixi qrammatika haqqındakı nəzəri fikirləri Avqust Şleyxerin müddəalarına əsaslanırdı . Ancaq onlar demək olar ki, A.Şleyxerin naturalist dilçilik konsepsiyasına qarşı çıxırdılar. Gənc qrammatiklər mövcud, yaşayan dillərin öyrənilməsinə daha çox üstünlük verilməsinin tərəfdarları kimi çıxış edirdilər. Onların rekonstruksiyaları hind-Avropa dillərinin vahid protodilinin bərpası deyil, ayrı-ayrı dillərin praformalarının bərpasına əsaslanırdı. Gənc qrammatiklər dilçiliyin müxtəlif sahələrinə tarixi dilçilik metodları ilə yanaşırdılar. Onların etimologiya sahəsindəki ən böyük xidmətləri kök sözlərdə fonetik dəyişmələrin qanunauyğunluqların müəyyən edilməsi mexanizmi idi. Bu fonoloji mexanizmin tapılması ilə həm ayrı-ayrı hind-Avropa dillərinin protoformalarından, həm də ortaq ulu dildən gələn qədim söz formalarının rekonstruksiyasını həyata keçirmək mümkün idi. Onların etimologiya sahəsində məhz ən böyük xidmətləri bundan ibarət idi.

Əbülfəz Rəcəbli "Dilçilik tarixi" əsərində gənc qrammatiklər məktəbinin fəaliyyətinə xüsusi bir bölmə həsr etmişdir (2, s.316-344). Ə.Rəcəbli onları dilçilik fəaliyyətini bir neçə istiqamətdən dəyərləndirmişdir: fərdi psixologizm; səs qanunları və analogiya haqqında təlim; müqayisəi-tarixi dilçilik məsələləri; sözü mənasının dəyişmə problemi; gənc qrammatiklərin nöqsanları; dilçiliyin inkişafında gənc qrammatiklərin rolu. Ə.Rəcəbli haqlı olaraq gənc qrammatiklərin etimologiya sahəsindəki müstəsna xidmətlərini xüsusi vurğulayır (2, s.342).

Ə.Rəcəblinin fikrincə, "*gənc qrammatiklər ulu formaları rekonstruksiya etməkdən tam imtina etmirdilər. Onların fikrincə, ulu formaların bərpasının şərt olmasına baxmayaraq, onun bərpası izahı qısa və əyani etdiyi və izahı düstura çevirmək imkanı verdiyi üçün, habelə, nəzərdən keçirilən formanın yeniyaranma, yaxud ulu dil mənşəli olduğunu aydınlaşdırmağa daim cəhd göstərməyə sövq etdiyi üçün ulu dil formalarını bərpa etməyə dəyər*" (2, s.342). Sitatdan da göründüyü kimi, Ə.Rəcəbli gənc qrammatiklərin ulu dilin bərpası sahəsində apardığı araşdırmaları dəyərləndirir. Həqiqətən də, gənc qrammatiklərin nümayəndəlri özlərindən əvvəlki müqayisəli-tarixi dilçiliyin nümayəndələrinin protodili bərpa etmək cəhdlərini qəbul etməsələr də, öz araşdırmalarında bu problemin həlli üçün morfonoloji inkişaf qanunauyğunluqları məüyyənləşdirmişdilər.

Gənc qrammatiklərin etimologiya sahəsindəki ən böyük xidmətlərindən biri o idi ki, onlar dil tarixinin öyrənilməsində, qədim dil elementlərinin bəprası prosesində tarixi fonetikanın əhəmiyyətini müəyyənləşdirdilər. Digər tərəfdən, gənc qrammatiklər məktəbinin ayrı-ayrı nümayəndələri tərəfindən aparılan araşdırmalar hind-Avropa dillərinin kök formalarının bərpasına əsaslanırdı. Həmin arxaik

formalar ortaq elementlərin təsbit olunmasına, hind-Avropa dillərinin qohumluq dərəcələrinin müəyyənləşməsinə şərait yaradırdı. Onların etimoloji təhlilləri, əsasən, fərdi dilləri əhatə etsə də, hind-Avropa dillərinin kök dildən ayrıldıqdan sonra morfonoloji və semantik inkişaf prosesini tarixi mərhələlər əsasında izləməyə imkan verirdi. Gənc qrammatiklərin etimologiyadakı digər uğuru ondan ibarət idi ki, onların araşdırmaları müqayisəli-tarixi metodun tarixi önəmini bir daha sübut etmiş oldu. Məhz bu tədqiqatlar XX əsrin əvvəllərindən başlayaraq hind-Avropa dilçiliyində etimologiyanın müstəqil bir dilçilik sahəsi kimi inkişafını şərtləndirmiş oldu.

Ə.Rəcəbli qeyd edir ki, "*gənc qrammatiklər ulu dil ünsürlərinin inkişafını tədqiq etməkdə diqqət mərkəzini tədricən ayrı-ayrı dillərin, yaxud ən yaxın dil qruplarının tarixində ən qədim yazılı abidələrin dilini öyrənməyə yönəldirdilər. Gənc qrammatiklər rekonstruksiya metodlarını təkmilləşdirdilər. E.German təklif edir ki, əvvəlcə ayrı-ayrı dillərin ulu formaları bərpa edilsin, yalnız bundan sonra ayrı-ayrı dillərin ulu formalarının bir-birinin nə dərəcədə uyğun gəlməsi müəyyənləşdirilsin, nəhayət, bu hazırlıq prosesləri bitdikdən sonra, ümumi ulu dil formaların rekonstruksiyasına başlanılsın*" (2, s.342).

Ə.Rəcəblidən başqa, Afad Qurbanov da gənc qrammatiklərin etimologiyanın inkişafındakı xidmətlərini yüksək qiymətləndirir. A.Qurbanov "Ümumi dilçilik" əsərində qeyd edir ki, "*XIX əsrə qədər qrammatikanı tərkibində yarımşöbə şəklində inkişaf etmiş etimologiya, sonradan tam müstəqil şöbə kimi formalaşmışdır. Etimologiyanın inkişafı tarixində XIX əsrin ortalarında A.F.Pottun, yüzilliyin sonunda isə gənc qrammatiklərin böyük rolu və təsiri olmuşdur*" (1, s. 231).

Nəticə olaraq bildiririk ki, gənc qrammatiklər məktəbinin istedadlı nümayəndələri tərəfindən hind-Avropa dilçiliyində elmi etimologiya XIX əsrin sonlarına doğru daha da təkmilləşdirilmiş oldu. Gənc qrammatiklərin etimoloji araşdırmaları müqayisəli-tarixi dilçiliyin aparıcı nümayəndələri olan Avqust Şleyxerin, Frans Boppun etimoloji baxışlarını inkşaf etdirdi və XX əsrdə etimologiyanın yeni istiqamətlərdə şaxələnməsinə zəmin hazırlamış oldu. Onların hazırladığı kök sözlərdə fonetik dəyişmə qanunauyğunluqları mexanizmi sonrakı tədqiqatlarda morfonoloji prinsiplərin etimologiya üçün elmi əhəmiyyətini sübut etmiş oldu.

## İstifadə edilmiş ədəbiyyat:

1. Qurbanov, A. Ümumi dilçilik. I hissə. Bakı: Maarif, 1989, 568 s.,
2. Rəcəbli, Ə. Dilçilik tarixi. I kitab.Bakı: Nurllan, 2007, 528 s.
3. http://www.krugosvet.ru/enc/gumanitarnye_nauki/lingvistika/MLADOGRAMMATIZM.htmlfile:///C:/Users/LENOVO/Downloads/Junggrammatiker.pdf
4. https://studfile.net/preview/7370689/page:4/
5. https://www.krugosvet.ru/enc/gumanitarnye_nauki/lingvistika/MLADOGRAMMATIZM.html
6. Алпатов В. М. История лингвистических учений:- М.: Языки славянской культуры, 2005. - 368 с.

7. Звегинцев В. А. История языкознания XIX и XX веков в очерках и извлечениях, ч. 1–2. М.: 1964–1965.
8. Кацнельсон С. Д. Вступительная статья // Пауль Г. Принципы истории языка. — М., 1960.
9. Макаев, Э.А. Общая теория сравнительного языкознания. М. : Едиториал УРСС, 2004.
10. Пауль Г. Принципы истории языка. — М. Издательство иностранной литературы, 1960. 500 с.
11. Семереньи, О. Введение о сравнительного языкознание. Москва: Едутоирал УРСС, 2002. 400 с.
12. Томсен В. История языкознания до конца XIX века. М.: 1938.

**Redaksiyaya daxil olma tarixi: 15.03.2024**
**Çapa qəbul olunma tarixi: 30.03.2024**
**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Baba Məhərrəmli tərəfindən çapa tövsiyə olunmuşdur**